

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 60 (23.702)

6 aprel 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edib.

Prezident İlham Əliyev son illər ərzində meliorasiya sahəsində böyük işlər görüldüyünü bildirib. Qeyd olunub ki, Taxtakörpü, Şəmkirçay Su anbarları inşa edilmiş, ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilmişdir. Artıq bu özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında göstərir.

Dövlətimizin başçısı mövcud çatışmazlıqlardan da danışıb, onların aradan qaldırılması üçün idarəetmədə müasir yanaşmanın tətbiq edilməsinin, müasir texnologiyaların ölkəmizə gətirilməsinin, dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmasının əhəmiyyətini qeyd edib.

Prezident İlham Əliyev azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsindən, azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimizin mövcudluğundan və su mənbələrimizin orada formalaşmasından, bundan səmərəli istifadə edilməsinin əhəmiyyətindən də danışıb. Ölkəmizin başçısı əmin olduğunu bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yeni təyin olunmuş sədri bu yüksək etimadı doğruldacaq.

Zaur Mikayılov Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dövlətimizin başçısını əmin edib ki, bu etimadı doğrultmaq üçün əlindən gələni əsirgəməyəcək.



## Naxçıvanda yeni meyvə bağı salınıb





Naxçıvan Muxtar Respublikasında ekoloji mühitin qorunması insanların sağlam həyat şəraitində yaşamasına xidmət edir. Bu səbəbdən də yaşıllaşdırma tədbirləri mütəmadi olaraq davam etdirilir, yaşıllıq zolaqlarının sahəsi genişləndirilir, ətraf mühit qorunur. İnsanlara təbiətə qayğı hissi aşılayan yaşıllaşdırma tədbirləri, xüsusilə iməciliklərin keçirilməsi həm də kənd təsərrüfatının mühüm qolu olan meyvəçiliyin inkişafına təkan verir.

Aprelin 3-də muxtar respublikada yaz mövsümünün ilk iməciliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba gölünün ətrafında keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik iştirakçıları 7 hektar ərazidə 1600 müxtəlif meyvə və üzüm tingləri əkmiş, aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir.

Məlumat verilmişdir ki, bu ilin yaz əkini dövründə muxtar respublikada 231 hektardan artıq sahədə meyvə və üzüm bağları salınacaq, yaşıllaşdırma, bərpa əkinləri aparılacaq, toxmacarlıq yaradılacaq və toxumla əkin həyata keçiriləcəkdir. Əkin zamanı 120 mindən artıq müxtəlif meyvə və meşə tinglərindən, 1300 kiloqram toxumdan istifadə olunacaqdır.

Həmin gün, ümumilikdə, muxtar respublikanın bütün rayonlarında 20 hektar ərazidə yeni meyvə bağı və yaşıllıq zolaqları salınmış, 12 mindən artıq ting əkilmişdir. 9 hektar ərazidə isə bərpa əkini aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Uzunoba Təlim-Məşq İdman Kompleksi istifadəyə verilib

Ölkəmizdə idman dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"İdman hər bir ölkənin gücünü göstərir. İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır".***

Naxçıvan Muxtar Respublikası ölkəmizin idman mərkəzlərindən birinə çevrilib. Muxtar respublikada keçirilən beynəlxalq səviyyəli idman yarışlarının və tədbirlərin sayı ildən-ilə artır. İdman infrastrukturu daim təkmilləşdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə qəbul olunmuş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" bu tədbirlərin davamlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Aprelin 3-də Uzunoba Təlim-Məşq İdman Kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək demişdir: Son illər Naxçıvan Muxtar Respublikasında idmanın maddi-texniki bazası xeyli gücləndirilmişdir. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir, 35 mindən artıq idmançı 2213 qrupda idmanla məşğul olur. Muxtar respublikada 2 Olimpiya İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 7 Uşaq-Gənclər Şahmat Məktəbi, 9 Uşaq-Gənclər İdman Məktəbi, 17 stadion, 27 mini-futbol meydançası, Atıcılıq Mərkəzi, Atıcılıq Əyləncə Mərkəzi, peyntbol meydançaları, yeni tikilən tam orta məktəblərdə müasir idman zalları yaradılmış, yeni olimpiya ağırlıqqaldırma qurğuları və 967 sadətipli idman avadanlıqları istifadəyə verilmişdir. Muxtar respublikada bütün idman növləri ilə yanaşı, futbol idman növünə göstərilən diqqət və qayğı sayəsində bu sahədə əsaslı irəliləyişlər olmuşdur. Uzunoba Təlim-Məşq İdman Kompleksinin inşası da bu sahədə görülən işlərin nəticəsidir. Azad Cabbarov idmanın inkişafına göstərilən diqqət və qayğıya görə muxtar respublikanın idman ictimaiyyəti adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycanda idman sahəsində görülən tədbirlər gənclərin sağlam böyüməsinə xidmət edir. Bu da ölkəmizin gələcəyi deməkdir. Muxtar respublikada da gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların sağlam böyümələri, zərərli vərdişlərdən uzaq olmaları və idmana cəlbi sahəsində ardıcıl tədbirlər görülür. Görülən işlər və yaradılan şərait artıq öz nəticəsini verir. İdman federasiyalarında yüzlərlə gənc müxtəlif idman növləri ilə məşğul olur. "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikanın ümumtəhsil məktəblərində müvafiq idman klublarının yaradılması davam etdirilir. Proqrama əsasən tikilib istifadəyə verilən Uzunoba Təlim-Məşq İdman Kompleksi də gənclərin asudə vaxtlarının səmərəli keçirilməsinə hesablanıb. Bundan başqa, rayonlarda stadionların qurulması işləri davam etdirilir. Federasiyaların rayonlararası keçirdiyi yarışlarda gənclərin fəallığı, eyni zamanda muxtar respublika federasiyalarında təmsil olunan gənclərin ölkə səviyyəli və Azərbaycanın iştirak etdiyi beynəlxalq yarışlardakı nəticələri onu deməyə əsas verir ki, Naxçıvanda idmanın inkişafı lazımi səviyyədədir.

Ali Məclisin Sədri demişdir: Təlim-Məşq İdman Kompleksinin qurulub istifadəyə verilməsi muxtar respublikada yenilikdir.

Ardı 2-ci səhifədə





Baxmayaraq ki, Naxçıvan və Şərur şəhərlərində olimpiya idman kompleksləri fəaliyyət göstərir. Lakin təlim-məşq idman kompleksi muxtar respublikada ilk dəfədir, istifadəyə verilir. Yaradılan şərait imkan verəcək ki, həm yay aylarında burada çimərlik idman növlərindən istifadə olunsun, həm də ilin bütün fəsillərində idmanın müvafiq növləri ilə bağlı məşqlər keçirilsin. Bunlar gənclərdə idmana maraq yaradacaq, onlar asudə vaxtlarını səmərəli keçirəcək və ən əsası sağlam böyüyəcəklər.

"Bu gün təhsilin inkişafı gənclərin sağlam böyüməsindən asılıdır. Əgər onlar sağlam həyat tərzi keçirirlərsə, deməli, yaxşı təhsil ala biləcək, ailələri, cəmiyyət və dövlət üçün yararlı vətəndaşa çevriləcəklər", – deyən Ali Məclisin Sədri kompleksin qurulmasının əhəmiyyətini vurğulamış, görülən işlərdə əməyi olanlara təşəkkür etmişdir.

Sonra kompleksə baxış olmuşdur. Məlumat verilmişdir ki, tikintisinə ötən ilin avqust ayında başlanılan təlim-məşq idman kompleksinin ümumi sahəsi 10 min 300 kvadratmetrdir. Kompleksin ərazisinə inzibati bina, süni örtüklü böyük futbol stadionu, üstüörtülü və çəpərlənmiş mini-futbol meydançaları, ikitribunalı çimərlik futbolu stadionu daxildir. İnzibati binada direktor, koordinator, məşqçi, ictimaiyyətlə əlaqələr, hakimlər komitəsi, yarışların keçirilməsi şöbəsi, mühafizə və digər köməkçi otaqlar, proyektorla təmin olunan 40 yerlik iclas zalı vardır.



Böyük futbol stadionunun eni 50, uzunluğu isə 99 metrdir. Stadionda tamaşaçılar üçün 65 oturacaqdan ibarət tribuna qurulmuş və ehtiyat oyunçular üçün hər biri 12 oturacaqdan ibarət 2 yer ayrılmışdır. Üstüörtülü futbol meydançasının örtüyü dörd tərəfdən aqreqatlar vasitəsilə qaldırılır. Eni 30, uzunluğu isə 40 metr olan çimərlik meydançasında 146 və 80 oturacaqdan ibarət 2 tribuna vardır. 146 nəfərlik tribunada 2 qarderob, hakim, həkim və digər köməkçi otaqlar yerləşir. İnzibati bina və stadionlar müasir işıqlandırma və videokamera sistemləri ilə təchiz edilmişdir.

Kompleksdəki stadionlar Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası, eləcə də Avropa Futbol Assosiasiyaları İttifaqının standartlarına tam cavab verir və beynəlxalq yarışlar üçün uyğundur.

Ali Məclisin Sədri kompleksdə muxtar respublika və beynəlxalq səviyyəli yarışların təşkili, müvafiq idman federasiyaları tərəfindən məşqlərin keçirilməsi, kompleksin internet saytının yaradılması və qurulanların qorunması ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Cahan Çay" Məhdud Məsuliyyətli Cəmiyyətində keyfiyyətli məhsullar istehsal olunur



Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı davamlı xarakter alıb. Yeni sənaye istehsalı müəssisələrinin yaradılması, mövcud olanların genişləndirilməsi ildən-ilə sənaye məhsullarının həcminin artması ilə müşahidə olunur. Muxtar respublikada sahibkarlığın inkişafına yaradılmış şərait nəticəsində uğurla fəaliyyət göstərən müəssisələrdən biri "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının "Cahan Çay" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

2006-cı ildə yaradılan müəssisə ötən dövrdə daxili imkanlarından səmərəli istifadə edərək satış şəbəkələrini genişləndirib, yerli və xarici bazarlarda istehlakçıların rəğbətini qazanıb. Burada istehsal olunan çayın xammalı dünyada ən yaxşı çayın yetişdirildiyi Seylon adasından idxal olunur. Seylon adasından çay ixracına görə dünyada öncül sıralardan birini tutan "Akbar Brother LTD" şirkəti ilə tərəfdaşlıq edən müəssisə, həm də Azərbaycanda "Akbar" brendini təmsil edir.

Qeyd edək ki, "Cahan Çay" MMC-nin istehsal prosesində ABŞ, İtaliya, Almaniya, Türkiyə, Macarıstan kimi ölkələrin qabaqcıl texnologiyaya əsaslanan avadanlıqlarından istifadə olunur. Bu avadanlıqlar vasitəsilə müəssisə ayda 30-35 ton məhsul istehsaletmə gücünə malikdir. Ümumilikdə, 4 istehsal xəttinə malik müəssisədə çay, qənd, şəkər tozu istehsalı ilə yanaşı, dənli bitkilərin qablaşdırılmasına da başlanılıb. "Ləçək" brendi altında istehsal olunan 30 çeşiddə məhsul artıq yerli bazarda istehlakçıların rəğbətini qazanıb. Həmçinin "Araz", "Əlincə", "Tudor" kimi əmtəə nişanı ilə qablaşdırılan məhsullar yerli tələbatı ödəyir. Daha geniş yayılmış "Tudor" markası ilə 80, 100, 225, 250, 450, 500 qram və 3 kiloqramlıq 4 növ salmaçay (birdəfəlik istifadə üçün paket) istehsal olunur.

Təbii ki, məhsul istehsalında növ və çeşidlərin həcminin artması, satış şəbəkələrinin genişlənməsi yeni iş yerlərinin yaradılmasına səbəb olub. Bu da əhalinin məşğulluğunun təmin edilməsinə töhfəsini verir. Hazırda müəssisənin istehsal sahəsinə 26, digər xidmət sahələrinə isə 180 nəfər cəlb olunmaqla iş yerlərinin sayı 206-ya çatdırılıb. Vurğulamaq lazımdır ki, "Cahan Çay" MMC-də çalışan işçilərin əmək hüquqları da qanunvericiliyə uyğun olaraq qorunur. Belə ki, müəssisə əməkdaşları lazımi geyim formaları, isti nahar yeməyi, nəqliyyat xidməti və yüksək əməkhaqqı ilə təmin olunurlar.

Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda qarşıya qoyulan mühüm vəzifələrdən biri rəqabətədavamlı məhsul istehsal edən yeni müəssisələrin yaradılması, daxili bazarın tələbatının yerli istehsal məhsulları hesabına ödənilməsi, ixracyönümlü məhsulların istehsalının artırılması və əhalinin məşğulluğunun təmin edilməsidir. "Cahan Çay" MMC də fəaliyyətində bu istiqamətləri əsas götürərək işini müasir dövrün tələblərinə uyğun qurur.

**✍ Səbuhi HƏSƏNOV**

## Növbəti aktivlər təqdim edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mart ayı ərzində muxtar respublika üzrə 23 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 19 nəfərin hər birinə 2 baş iribuynuzlu, 4 nəfərin hər birinə 20 baş xırdabuynuzlu heyvan verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 8 nəfərini sağlamlıq imkanları məhdud şəxslər, 3 nəfərini şəhid ailəsi, 2 nəfərini nikahı pozulan qadın, 2 nəfərini ailə başçısını itirən şəxs, 1 nəfərini müharibə veteranı, 1 nəfərini həyat yoldaşı cəzaçəkmə müəssisəsində olan qadın, 6 nəfərini isə sosial qayğıya ehtiyacı olan ailələr təşkil edib.



Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Tədbirdə nazirlik yanında Dövlət Məşğulluq Agentliyinin direktoru Vüsal Süleymanlı və Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Samir Qasımov çıxış edərək ötən dövr ərzində proqramın icrası istiqamətində görülən işlərdən danışıblar.

Sonra aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub. Özünüməşğulluğu təmin edilmiş şəxslər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Melioratorlar yaz suvarma mövsümünə hazırdır

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları tərəfindən yaz suvarma mövsümünün mütəşəkkil keçirilməsi üçün mart ayında muxtar respublika ərazisində kanal və arxlarda, nasos stansiyası və təzyiqli boru xətlərində, su anbarlarının suburaxıcı qurğularında, içməli su xətlərində və digər hidrotexniki qurğularda təmir-bərpa işləri aparılmışdır.***

Muxtar respublika ərazisində olan su anbarlarına su ehtiyatının toplanılması işləri davam etdirilmiş, ay ərzində sututarlara 39,6 milyon kubmetr su yığılmışdır. Heydər Əliyev Su Anbarının qəza suburaxıcı qurğusunun tunel hissəsində təmir-bərpa işlərinə başlanılmışdır. Hesabat dövründə 5,2 kilometr yeni suvarma boru xətti çəkilmiş, 1,8 kilometr suvarma boru, 5,2 kilometr içməli su, 3,7 kilometr təzyiqli boru xətti təmir edilmiş, 24 kilometr beton və torpaq kanal, 28,8 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənmişdir. 2 kəhrizdə təmir işləri başa çatdırılmış, 5-də təmir işləri davam etdirilmiş, 33 subartezian quyusu təmir olunmuş, 1 subartezian quyusunun qazılması işlərinə başlanılmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 150 metr istiqamətləndirici bənd salınmış, həmçinin 35 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.



Ötən ay ərzində Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 5,2 kilometr suvarma xətti çəkilmişdir. Şahbuz rayonunun Külüs kəndi ərazisində yeni nasos stansiyasının tikintisi və təzyiqli boru xəttinin quraşdırılması işləri davam etdirilmişdir. Culfa və Ordubad rayonları ərazisində suvarma suyuna olan tələbatın yaxşılaşdırılması məqsədilə Gilançaydan qidalanan suvarma boru xəttinin çəkilişi, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 və Kəngərli rayonunun Böyükdüz kəndinin 2100 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından və Araz çayından qidalanan yeni nasos stansiyalarının və təzyiqli boru xətlərinin tikintisi işlərinə başlanılmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Kəngərli rayonunun Xok kəndində 5,2 kilometr içməli su xətti çəkilmiş, 159 evə su birləşməsi aparılmışdır.

Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 97 evin içməli su xəttinə, 122 evin kanalizasiya xəttinə, Sədərək rayonunda 258 evin içməli su xəttinə, 240 evin isə kanalizasiya xəttinə birləşməsi aparılmışdır. Bundan əlavə, Sədərək rayonunun Dəmirçi kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə tikinti işlərinə başlanılmış, 192 ev birləşməsi xətləri çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

2021-ci il “Nizami Gəncəvi ili”dir

# Söz mülkünün sultanı



Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Prezident cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi haqqında 2021-ci il 5 yanvar tarixli Sərəncamı Nizami Gəncəvi yaradıcılığına, bütövlükdə, Azərbaycan ədəbiyyatına dövlət səviyyəsində yüksək qiymət verilməsinin parlaq təzahürüdür. Sərəncamda deyilir: *“Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir”.*

Nəinki Azərbaycan, Yaxın və Orta Şərq ədəbiyyatında epik şeirin ən böyük ustadlarından biri sayılan Nizami Gəncəvi həm beş inci kimi dəyərləndirilən “Xəmsə”si, həm də lirik əsərləri ilə məşhurdur. “Xəmsə”yə daxil olan məsnəvilər içərisində elə bir əsər tapmaq mümkün deyil ki, orada söz haqqında, dil haqqında maraqlı və aktual fikirlər olmasın.

*Sözün qanadları var, quş kimi incə-incə,*
*Dünyada söz olmasa, nəyə gərək düşüncə?*
*Söz bayraqdan daha çox əldə eyləyər zəfər,*
*Qılıncdan daha artıq qalxıb alar ölkələr.*

*Sordu: köhnə qızılmı, təzə sözmü yaxşıdır?*
*Söz sərrafı söylədi: “söz dünyanın naxşıdır”*
*Hər bir söz ki əlinlə şöhrət tapmasa gerçək,*
*O söz mən belə olsam, o sözə bir qələm çək.*

Doğrudur, Nizami Gəncəvidən bəhs edənlər daha çox onun məsnəvilərini – poemalarını (onlara mənzum roman da deyilir) vurğulamış və şairin bu janrda yazdığı əsərləri ilə məşhur olduğunu söyləmişlər. Bu anlamda, onun lirikası bir qədər diqqətdən kənarda qalmışdır.

Dahi şairin yaradıcılığında irihəcmli əsərləri diqqəti daha çox cəlb etsə də, onun lirik poeziyası da dəyərli sənət inciləridir. Həmin əsərlər dərin lirizmi, səmimi ifadələri, dil-üslub özəllikləri ilə seçilir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, böyük söz ustadının lirik əsərlərində əsas məsələlərə münasibət çox orijinal, Nizamisayağı və diqqətçəkicidir.

Mövzu baxımından zənginlik, ifadə baxımından mükəmməllik, tərənnüm obyektləri baxımından müxtəliflik və xaslıq Nizami Gəncəvinin yaradıcılığındakı lirik örnəklərin səciyyəvi xüsusiyyətlərindəndir. Əslində, o, təkcə lirik əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixinin parlaq simalarından biri olmaq şərəfinə layiqdir. Şairin müraciət obyektlərinin seçkinliyi, kamil bənzətmə və müqayisələri, hiss və duyğulardan yaranan həyəcanın təqdimedilmə üsulu həmin fikri irəli sürməyə əsas verir. Onun söz dünyası qiymətli fikirlər, mənalı aforizmlərlə doludur:

*Polad kimi bərkit qızıl sözü sən,*
*Salsın söz sikkəsi pulu qiymətdən...*
*Düşüncəsiz bir söz kimə gərəkdir?*
*Kim belə sözləri dinləyəcəkdir?*
*Sözü mənzum demək asandır, asan,*
*Ancaq nəzm üstündə gərək durasan.*
*Sözün çoxsa əgər, çalış az olsun,*
*Yüz sözün yerində bir kəlmə qalsın.*

Nizami Gəncəvinin lirikası tam şəkildə günümüzə qədər gəlib çatmasa da, bu lirikanın müxtəlifliyini təsdiq edən faktlar var. Şairin lirik irsindən bu günə qədər gəlib çatan janrlar – qəzəl, qəsidə və rübailər müəllifinin mükəmməl bir lirik şair olduğunu əsaslandıran nümunələrdir.

Nizami Gəncəvinin lirik yaradıcılığında təkcə təfəkkür, düşüncə, təfərrüat yoxdur, həm də bədii detallar vardır. Bu mənada, şairin qəsidələri diqqətçəkən lirik əsərlərdir. Şairin qəsidələri yüksək sənətkarlıqla, savadlı və səviyyəli bir təfəkkürlə qələmə alınmışdır. Şair onları digər əsərləri kimi fars dilində yazsa da, həmin əsərlərdəki fikirlər Azərbaycan təfəkkür tərzi və mədəniyyətindən irəli gələn faktlar kimi qiymətlidir.

Nizami Gəncəvi həmişə sözə, fikrə, kəlama yüksək dəyər verən şair olmuşdur. Onun elə bir əsəri yoxdur ki, orada həmin məsələyə toxunulmasın. Hələ ilk qəsidəsində şair deyirdi:

*Mən – fikirlər ustadıyam, fəzilətim – bir ümmandır,*
*Zamanlara, məkanlara hökm etməyim səmadandır.*

Doğrudan da, Nizami Gəncəvi böyük fikirlər, dərin düşüncələr şairidir. Şair özü qeyd edir ki, onun qabiliyyəti səmadandır, yəni böyük Tanrının lütfüdür.

Nizami Gəncəvi bəzən təvazökarlıqla dediklərini “saçma” adlandırır, ancaq düzgün olaraq onları təbiət və təfəkkürün təməli hesab edir:

*Təbiətin, təfəkkürün təməlidir saçmalarım,*
*Piyaləmin xıltı – mədən, bitkilərə nəfəs, candır.*

Nizami Gəncəvinin ilk qəsidəsi iyirmi səkkiz beytdən ibarətdir və həmin əsərin son beyti çox maraqlıdır. Həmin beytdə şairin sözə münasibəti müəyyənləşir:

*Yetər, bağla xəzinəni, aç incilər sandığını,*
*Söz incisi fazillərə ən qiymətli ərməğandır.*

Sözügedən qəsidədə Nizami Gəncəvinin söz, dil, nitq haqqında maraqlı və layiqli fikirləri verilmişdir:

*Təzə bəhrə kimi gülən mənim cəsur üslubumun*
*Yanında hər bir yenilik xəzəl kimi saralandır...*

*Mən şeriyyət səmasında ləkəsiz bir Ay bədriyəm,*
*Mirvaridə illət olur...məndən uzaq illət andır...*

*Umsan Misir bələsinı, məni dinlə, baldı nitqim,*
*Xurma kimi dadlı, şirin, qaymaq tutan bir lisandır...*

*Zənd oxuyan möbidlərin nəfəsini kəsər nəğməm,*
*O nəğmə ki zəbur təki dəhşət saçan bir tufandır...*

*Hər sözümün qüdrətilə min-min ürək çiçəklənir,*
*Dodaqlarım güz fəslində yaz nəfəsli tər reyhandır.*

Bu qəsidəni fəxriyyə hesab etmək olar, çünki burada müəllifin sənətkarlıq keyfiyyətlərinin təntənəsindən doğan qürur hissləri tərənnüm olunur ki, bu da fəxriyyə janrının səciyyəvi cəhətlərindəndir. Qəsidənin bəzi beytləri bunu açıq-aşkar təsdiq edir:

*Fəxr edirəm sənətimlə. Deyin, necə fəxr etməyim,*
*Mətləblərim bunca incə, şerim bu qədər rəvandır.*

Nizami Gəncəvi qəsidədə özünü öyməsinə peşman olur və bildirir ki, özlərini öyənlər daxildən zəif və aciz olan adamlardır:

*Ah, bu qədər öyünməklə həm xəciləm, həm peşiman,*
*Öz-özünü mədh eyləyən içəridən natəvandır.*

Nizami Gəncəvinin digər qəsidələri də məzmun və fikir keyfiyyətlərinə görə zəngin və maraqlıdır. Şair sözü məqamında söyləməyi məziyyət hesab edir. Məqamında deyilməyən söz könülləri yıxa bilər. Elə söz vardır ki, onu gizli şəkildə və ya birdən-birə demək lazımdır. Elə söz də vardır ki, onu birbaşa demək olmur. Belə məqamlarda şair hər hansı bir məsələdən söz salıb deməklə istədiyin sözü arada söyləməyin faydasını göstərir:

*Ey yel, sən ona dərdimi pünhan söylə,*
*Qəlbimdə olan yanğını tufan söylə.*
*Amma elə et ki, könlü olmasın qəmgin,*
*Söz sal, arada danış, nagahan söylə.*

Nizaminin söz aləmindən alınan incilər müəllifinin söz ustadı olması fikrinə möhür vurur.

*Söz ruhdur, can üçün ruh bir dərmandır,*
*Can tək əzizliyi, bəlkə, bundandır.*

*Doğru yazmağa var, madam ki, imkan,*
*Neçin gəlməlidir ortaya yalan?*
*Sözün qiymətini saldı yalanlar,*
*Doğrunu danışan hikmətli olar.*

*Hər söz düşüncəylə deyilsin gərək,*
*Xərcləmədən əvvəl qızılı bir çək.*

*Ağzında o qədər saxla ki, sözü,*
*Yaxşı ad qazansın deyənin özü .*
*Hiyləli sözlərdən əcəb nə çıxar?*
*Ürək bulandıran söhbətdə nə var?*
*Mən sözü ölçməmiş deməram əsla,*
*Sən də söyləyəndə söylə qiyasla.*

Nizami Gəncəvinin söz haqqındakı fikirləri saysız-hesabsızdır. Onlar bu gün üçün də qiymətlidir, sabah üçün də gərəklidir. Onlardan nə qədər adam faydalanacaq, nə qədər mənəviyyatlar zənginləşəcək. Bu, bir həqiqətdir ki, şairin özü dediyi kimi:

*Ağıllı adamın söylədikləri*
*Yer altına düşsə, itməz dəyəri.*

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamında da qeyd edildiyi kimi, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığı bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətə malikdir. Buna görə də dahi şairin həyatı, dünya ədəbiyyatının nadir incilərindən olan poetik irsi qiymətli bəşəri dəyər kimi daim öyrənilib təbliğ olunacaq. Heç şübhəsiz ki, “Nizami Gəncəvi ili” bu mühüm məramın gerçəkləşməsinə öz misilsiz töhfələrini verəcək.

**Sədaqət HƏSƏNOVA**
***Naxçıvan Dövlət Universitetinin professoru***

# Qarnizon xəbərləri



*Naxçıvan Qarnizonunda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Mərasimdə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edənlər kursları uğurla bitirən məzunları təbrik ediblər.

Bildirilib ki, tariximizə qızıl hərflərlə yazılan Aprel döyüşlərindən 5 il keçir. Bu döyüşlər zamanı işğaldan azad olunan strateji ərazi, yüksəklik və mövqelər, ardınca 2018-ci ildə qazanılan Günnüt zəfəri, ən sonda isə 44 günlük Vətən müharibəsində şanlı tarixi qələbəmiz Azərbaycan Ordusunun hərbi qüdrətini bütün dünyaya göstərdi. İnanırıq ki, bu gün peşəkar hərbi qulluqçu kimi buraxılış mərasimi keçirilən gizirlər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da bu döyüşlərdə iştirak edən igid döyüşçülərin vətənpərvərliklərindən örnək götürəcək, Vətəni qorumaq kimi şərəfli vəzifənin öhdəsindən layiqincə gələcəklər.

Çıxışların ardından kursları müvəffəqiyyətlə bitirən məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı”na əsasən birləşmələrdə komanda-qərargah təlimi keçirilib.

Təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün birləşmə və hissələr “Həyəcan” siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatlarının planlaşdırılması hərbi qərar qəbuletmə prosedurlarına uyğun olaraq keçirilib.

Praktik fəaliyyətlərə cəlb edilmiş tabor taktiki qrupunun bölmələri şərti düşmənin həmləsini dəf edərək onun canlı qüvvəsinə, zirehli texnikasına atəş zərbələri endirməklə hücum edən bölmələr üçün əlverişli şərait yaradıblar.



Təlimin sonuncu mərhələsi qəbul edilmiş qərarların, aparılmış hesabatların reallığının, bölmə komandirləri tərəfindən fəaliyyətlərin Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib. Kompüterlər vasitəsilə bölmə komandirləri ərazinin relyefindən istifadə etməklə düşmənə yaxınlaşma, manevr bölmələrinin atəş təminatı və yaranmış taktiki şəraitdə çevik qərar qəbuletmə bacarıqları təkmilləşdiriblər.

Təlimin sonunda fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd edilib və qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanıb.

**Kənan CƏLİLOV**

# Ailə, qadın və uşaq hüquqları qorunur



*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması mart ayında da diqqətdə saxlanılmış, bununla əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir.*

Ötən ay Şərur rayonunun Yengicə kəndində yaşayan aztəminatlı Süleymanovlar ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir.

Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı təşkil edilmiş, 514 şəxsin 7426 rəsm və əl işi nümayiş olunmuşdur. 11 gün davam etmiş sərgi-satışda 278 müəllifin 26557 manat dəyərində 2583 rəsm və əl işi satılaraq dəyəri sahiblərinə təqdim olunmuşdur. Əlavə olaraq sərgi-satış çərçivəsində “Ən yaxşı əl işləri” müsabiqəsi keçirilmiş, münsiflər heyəti tərəfindən 9 qalib müəyyənləşdirilmiş, sərgi-satışın son günü onlar diplom və hədiyyə ilə mükafatlandırılmışdır.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən sərgi-satışda və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin satış mağazasında 48 istedadlı qadının 614 manat dəyərində 109 əl işi satılmışdır. Ümumilikdə isə 2021-ci ilin I rübü ərzində 326 şəxsin 27171 manat dəyərində 2692 rəsm və əl işi satılaraq dəyəri sahiblərinə təqdim olunmuşdur.

“Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin davamı olaraq “Naxçıvan Muxtar Respublikasında COVID-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək” layihəsində sərmayə kapitalı verilmiş 39 qadından 4-nün yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir.

Hesabat ayında komitə və Culfa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonda yaşayan 13 aztəminatlı ailənin üzvü, 9 sağlamlıq imkanları məhdud qadına toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmiş, istedadlı toxucu qadın Gülsüm Kəngərli əyani vasitələrdən istifadə etməklə iştirakçılara toxuculuq peşəsinin sirlərini öyrətmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 3 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 3 uşağın evində monitorinq keçirilmişdir. Monitorinq zamanı aşkarlanan nöqsanlar aktlaşdırılmış, tədbir görülməsi üçün aid orqanlara məktub göndərilmişdir. Ötən ay valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 5 uşağın qeydiyyatı aparılmışdır. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 310 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunması və artırılması istiqamətində sistemli tədbirlər görülür, meliorasiya və irriqasiya işləri diqqətdə saxlanılır. Hər il müasir hidrotexniki qurğular tikilərək istifadəyə verilir, mütərəqqi əkin və suvarma üsullarının tətbiqi ilə torpaqların münbitlik göstəriciləri və su təminatı yaxşılaşdırılır, deqradasiyaya məruz qalan torpaq sahələrinin sahəsi azaldılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi bu istiqamətdə yeni imkanlar yaradıb.*

**Mütəxəssis sözü**

## Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ərzaq təhlükəsizliyinin təmin olunmasında vacib amildir



Tədbirlər planında qarşıya deqradasiyaya məruz qalmış torpaq sahələrinin uçotu və xəritələşdirilməsi, torpaqların qida maddələri ilə təminolunma kartoqramlarının yenilənməsi, əkin atlaslarına uyğun ixtisaslaşmanın təşviqi, torpaq örtüyü zədələnmiş ərazilərdə rekultivasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı konkret vəzifələr qoyulub. Yeni dövlət sənədində eroziyaya məruz qalmış ərazilərdə tarlaqoruyucu zolaqların salınması, şoranlığa və şorakətliyə asanlıqla uyğunlaşan bitkilərin əkilib-becərilməsi, az şoranlaşmış torpaqlarda üzümlüklərin, püstə, badam bağlarının salınması, torpaqlardan səmərəli istifadəyə dair maarifləndirmə tədbirlərinin keçirilməsi də nəzərdə tutulub. Belə tədbirlərin həyata keçirilməsi məqsədilə aid qurumlarla razılaşdırılmaqla müvafiq komissiya yaradılaraq iki ay müddətində monitorinqlər aparılıb, müxtəlif amillərin təsiri ilə deqradasiyaya məruz qalmış torpaq sahələri müəyyənləşdirilib. 2021-2025-ci illərdə 8 min hektardan çox torpaq sahəsində şoranlaşma və çəmənləşməyə qarşı, eləcə də digər meliorativ tədbirlər aparılacaqdır.

Torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə onun su, qida, hava və istilik rejimləri düzgün tənzimlənməli, kənd təsərrüfatı bitkilərinin fenoloji və bioloji inkişaf xüsusiyyətlərindən asılı olaraq optimal aqrofon yaradılmalıdır. Lakin torpaqdan düzgün istifadə olunmadıqda onun faydalı xassələri tədricən itərək yüksəkkeyfiyyətli məhsul yetişdirilməsinə imkan vermir. Torpaq üzərində aparılan hər hansı düzgün olmayan əməliyyat yalnız məhsuldarlığın və keyfiyyət göstəricilərinin aşağı düşməsinə deyil, ekoloji tarazlığın pozulmasına, uzun müddət münbitliyin itirilməsinə və sair çatışmazlıqlara da gətirib çıxarır.

Torpaqda üzvi və mineral maddələrin ehtiyatının səviyyəsi, torpağın biotası, torpaq məhlulunun reaksiyası, tərkibindəki su və fiziki xassəsi onun münbitliyinin əsas göstəricisi sayılır. Həmin göstəricilər optimal səviyyədə olanda torpaq münbit hesab edilir. Belə torpaqlarda bitkilər lazımi qida maddələri ilə yaxşı təmin olunduğuna görə onlar normal inkişaf edir və yüksək məhsul verir. Ona görə əkinçilikdə əsas vəzifə bitkilərin torpaq şəraitini yaxşılaşdırmaqla, onların lazımi həyat amilləri, yəni su, qida maddələri, istilik və hava ilə təmin olunmasından ibarətdir. Bu göstəricilərin hər birinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün müxtəlif tədbirlər mövcuddur. Düzgün və vaxtında aparılan becərmə torpaqdakı mikroorqanizmlərin həyat fəaliyyəti üçün ən yaxşı şərait yaradır. Bununla əlaqədar olaraq torpaqdakı bitki qalıqlarının və çürüntünün parçalanması nəticəsində onların tərkibindəki qida maddələri tədricən mineral birləşmələrə çevrilir və bitkilər tərəfindən asanlıqla mənimsənilir. Bir-biri ilə əlaqədar olan ayrı-ayrı becərmə üsullarının kompleksi elmi əsaslar üzərində müəyyən olunmuş vaxtda ardıcıl surətdə həyata keçirildikdə torpağın münbitliyi xeyli artır.

Torpaqda üzvi maddələrin ehtiyatını artırmaq üçün daha çox "siderat" adı ilə tanınan yaşıl gübrələr verilir. Bitki mənşəli gübrələrə paxlalı bitkilər aiddir. Paxlalı bitkilərin yaşıl kütləsi torpağa çevrilməklə onu üzvi maddələr, azot və digər qida elementləri ilə zənginləşdirməmk mümkündür. Muxtar respublikada əkin sahələrinin genişləndirilməsi və bol məhsul istehsalının təmin edilməsi məqsədilə müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması davamlı xarakter alıb. Əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına göstərilən dövlət qayğısı, eləcə də torpaqların münbitliyinin qorunması və yüksəldilməsi tədbirləri sayəsində az məhsuldar və istifadəsiz torpaqlar da əkin dövriyyəsinə cəlb edilib.

Son illərdə muxtar respublikada xeyli mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları istifadəyə verilib. Kənd təsərrüfatı məhsullarının becərilməsində suvarma üsullarının düzgün seçilməsi, su mənbələrindən səmərəli istifadə edilməsi, məhsuldarlığın artmasına, eyni zamanda suvarma sularına qənaət edilməsinə səbəb olur. Suvarma torpağın əkin qatının fiziki xassələrini yaxşılaşdırır, kimyəvi və mikrobioloji proseslərin istiqamətini artırır, habelə üzvi maddələrin parçalanma və toplanmasını sürətləndirir. Müəyyən torpaq, iqlim, aqrotexniki şəraitdə suyun artıq verilməsi nəinki məhsuldarlığı artırar, əksinə, ziyan verə bilər. Belə ki, normadan artıq verilən su torpaqların şoranlaşmasına, şorakətləşməsinə, bataqlaşmasına, qrunt suyunun səviyyəsinin artmasına səbəb olur. Buna görə də kənd təsərrüfatı bitkilərindən yüksək məhsul əldə edilməsi, torpağın münbitliyinin qorunması məqsədilə əkinçilikdə suvarma suyunun bitkinin ehtiyacı qədər, lazımi miqdarda və vaxtlı-vaxtında verilməsi vacib şərtlərdəndir.

Müxtəlif təbii və antropogen təsirlər nəticəsində torpaqlarda baş verən deqradasiya prosesləri, son nəticədə, münbitliyin azalmasına, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Muxtar respublikada torpağın münbitliyinin pozulmasına təsir göstərən amillər kimi eroziya, şoranlaşma, şorakətləşməni, bataqlıqlaşmanı, daşlıq və kol-kos basmış sahələri və digərlərini göstərmək olar. Əkinəyararlı torpaq sahələrinin üst münbit qatının yuyulmasında əsas rol oynayan amillərdən biri də külək və eroziyasıdır. Eroziya prosesləri içərisində su eroziyası muxtar respublika ərazisində başqa təbii amillərə nisbətən daha çox nəzərə çarpır. Deqradasiyanı yaradan səbəblər arasında təbii amillərlə yanaşı, antropogen təsirlər də əsas diqqətçəkən məsələlərdən biridir. Belə amillər ətraf mühitə, o cümlədən torpağa təsir göstərən insan fəaliyyətinin müxtəlif formalarını birləşdirir.

Ərazidə torpaq münbitliyinin azalmasına təsir göstərən, qış və yay otlaqlarında heyvanların sistemsiz otarılması hallarını da qeyd etmək olar. Otlaq sahələrində mal-qaranın otarma qaydalarına düzgün əməl edilməməsi və bitki örtüyünün məhv edilməsi səhralaşmanın əmələ gəlməsinin əsas səbəblərindən biridir. Mənfi antropogen amillərə misal kimi, nəzarətsiz suvarma nəticəsində torpaqlarda baş verən irriqasiya eroziyasıdır. Bu proseslər nəticəsində torpaqların üst münbit hissəsi yuyulur, dərin şırım və yarğanlar yaranır, beləliklə də torpaqlar yararsız hala düşür.

Əkin sahələrindən səmərəli istifadə etməklə, torpağın münbitliyinin artırılması və becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi istiqamətində aparılan aqrotexniki tədbirlər içərisində növbəli əkin sistemi xüsusi əhəmiyyət kəsb edir. Əkinlərin növbələşməsinin zəruri səbəbləri vardır. Çünki növbəli əkin zamanı bitkilərin bioloji xüsusiyyətlərindən asılı olaraq aparılan aqrotexniki tədbirlərin, hər bitkinin özündən sonra torpaqda müəyyən miqdar üzvi maddə (bitki qalıqları) saxlaması bu bitkidən sonra əkilmiş başqa bitkinin boy və inkişafına xeyli dərəcədə təsir göstərmiş olur. Elmin və qabaqcıl təcrübələrin nəticələri göstərir ki, iki il ardıcıl yonca becərilən sahədə növbəti il əkilən taxıldan daha yüksək və keyfiyyətli məhsul götürmək olar. Yonca iki il ərzində torpağın hər hektarında 300 kiloqramadək, bəzən isə daha çox azot toplayır. Onun kök sistemi torpağın aqrofiziki xüsusiyyətlərini yaxşılaşdırır. Şorlaşmaya meyil göstərən torpaqlarda yoncanın kökləri biodrenaj rolunu oynayır. Ona görə də taxılın ən yaxşı sələfi yoncadır. Yonca, eyni zamanda digər dənli və dənli-sünbüllü bitkilər üçün yaxşı sələfdir.

Torpaqların yaxşılaşdırılması ilə bu gün məşğul olmalıyıq, onu sabaha və ya o biri günə saxlamaq vəziyyəti daha da gərginləşdirər və kapital qoyuluşunu qat-qat artırar. Bu gün hər bir torpaq istifadəçisi torpağın və bitkinin "dilində" danışmağı öyrənməli və onlarla necə davranmağı bacarmalıdır. "Pis torpaq yoxdur, pis təsərrüfatçı var" deyimini həmişə yadda saxlamaq və torpaqların becərilməsinə bu prinsiplərə ciddi əməl edilməsi baxımından yanaşılmalıdır.

Kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaq əvəzedilməzdir; torpaq məhduddur, yəni onu böyütmək, çoxaltmaq, artırmaq, yerini dəyişmək olmaz, torpağa məxsus xüsusiyyət yalnız onun münbitliyidir. Torpaqlarımızın sağlamlaşdırılması, mühafizəsi, ondan səmərəli istifadə olunması məqsədilə münbitliyinin bərpası və artırılması, habelə ekoloji cəhətdən təmiz və keyfiyyətli, bol məhsul istehsal edilməsi hamımızın müqəddəs və təxirəsalınmaz işidir.

**Əli HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

## Azərbaycanın ali təhsil müəssisələri arasında ilk regional məntiq olimpiadası keçirilib

*Naxçıvan Dövlət Universitetində Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə olaraq regional məntiq olimpiadası keçirilib.*



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra olimpiada ilə bağlı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, "Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva çıxış edərək belə yarışların tələbələrin məntiqi biliklərinin formalaşdırılması və inkişafına xidmət etmək baxımından əhəmiyyətini vurğulayıblar.

Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov olimpiada haqqında məlumat verib. Qeyd edilib ki, olimpiadanın devizi "Elm, dostluq və sağlam rəqabət!" dir. Sonra elm haqqında bədii qiraət edilib və İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqilər səsləndirilib.

İki mərhələdə təşkil edilən olimpiadaya 3 ali təhsil müəssisəsindən 250-yə yaxın tələbə onlayn olaraq müraciət edib. Onlardan 110 nəfəri qaydalar üzrə yarışda iştirak etmək hüququ qazanıb. Elektron formatda təşkil olunan yarışın birinci mərhələsində tələbələrə 50 sual ünvanlanıb. İlk mərhələ üçün vaxt limiti 1 saat 30 dəqiqə müəyyənləşdirilib. Yarışın ikinci mərhələsində hər bir universitetdən ən yüksək nəticə göstərmiş 5 nəfər həmin ali təhsil ocağını komanda olaraq təmsil etmək hüququ qazanıb. Şifahi-elektron formatda təşkil olunan II mərhələdə 30 sual olmaqla, hər suala 1 dəqiqə vaxt verilib. Olimpiadanın final mərhələsində komandalara 30 sual ünvanlanıb. Doğru və tez cavab verən komandalar mərhələnin qalibi olub.

Olimpiadanın gedişi üç ali təhsil müəssisəsindən müşahidəçilərin iştirakı ilə qiymətləndirilib. Nəticədə, Naxçıvan Dövlət Universitetinin komandası olimpiadanın qalibi olub, Naxçıvan Müəllimlər İnstitutu II, "Naxçıvan" Universiteti isə III yerləri bölüşüblər. Qalib komanda kubok və pul mükafatı ilə təltif edilib, II və III yerə layiq görülənlərə diplom və medallar təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər mart ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 12 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 380 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 150-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 230 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 89-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Boksçumuz beynəlxalq turnirdə gümüş medal qazanıb

*Türkiyənin İstanbul şəhərində təşkil edilən boks üzrə beynəlxalq Boğaziçi turniri başa çatıb. Azərbaycan milli komandası 30-a yaxın ölkədən 250 idmançının qatıldığı yarışı 7 medalla başa vurub.*



Yığmamızın heyətində 69 kiloqram çəki dərəcəsində rinqə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Sərxan Əliyev çıxıb. Boksçumuz 1/8 və 1/4 final mərhələlərini qələbə ilə başa vuraraq yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə dəri əlcək sahibimizin rəqibi ukraynalı boksçu Maksim Molodan olub. Gərgin keçən görüşdən 3:2 hesabı ilə üstün ayrılan Sərxan Əliyev finala vəsiqə qazanıb. Boksçumuz həlledici döyüşdə Darxan Dusebayla (Qazaxıstan) münasibətinə aydınlıq gətirib və rinqi məğlub tərk edib. Uzun fasilədən sonra keçirilən ilk beynəlxalq turnirdə boksçumuz gümüş medal qazanıb.

Qeyd edək ki, kişi boksçulardan ibarət Azərbaycan millisi turnirdən öncə Türkiyənin Kastamonu şəhərində təlim-məşq toplanışı keçib. Təlim-məşq prosesində Sərxan Əliyevlə yanaşı, Tayfur Əliyev (hər ikisi 57 kiloqram) də iştirak edib. Onu da vurğulayaq ki, millimizin heyətində hələlik Naxçıvan boksçusu Tayfur Əliyev "Tokio-2020" Yay Olimpiya Oyunlarına vəsiqə əldə edib.

**Ceyhun MƏMMƏDOV**


***İtmişdir***

Naxçıvan şəhəri, 4-cü küçə, döngə 2, ev 7 ünvanında yaşayan Həsənov Rza Fərhad oğlunun adına olan 11045 inventar nömrəli texniki pasport və MH-0006539 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Şəhriyar kənd sakini Məmmədov İntiqam Əli oğlunun adına verilmiş 102013000208 nömrəli reyestr itdiyindən etibarsız sayılır.

* * *

Qafarov Hüseyn Fizuli oğlunun adına olan 0201130242 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan:* AZ-7000,**
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:* Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 282**